Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Nuh və Böyük Daşqın

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Tammy S.

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.



Nuh Allaha ibadət edən adam idi. Digərləri isə Allaha nifrət və itaətsizlik edirdi. Bir gün Allah heyrətləndirici bir şey dedi. Allah Nuha dedi: “Mən bu pozğunlaşmış dünyanı məhv edəcəyəm. Yalnız sənin ailən xilas olacaq”.

Allah Nuha xəbərdarlıq etdi ki, böyük daşqın gələcək və yer üzünü basacaq.  “Ağacdan gəmi düzəlt, sənin ailən və çoxlu heyvanlar üçün kifayət qədər böyük olsun”, deyə Allah Nuha əmr etdi.  Allah Nuha dəqiq təlimatlar verdi.  Nuh işə başladı!





Nuh gəmini nə üçün tikdiyini başa saldıqca, insanlar yəqin ki, onu ələ salırdılar.

O, həmçinin, insanlara Allah haqqında da danışırdı. Heç kim dinləmirdi.



Nuhun böyük imanı var idi. Baxmayaraq ki, əvvəl heç vaxt yağış yağmamışdı o, Allaha inandı. Tezliklə gəmi təchizatlarla dolmağa hazır idi.

İndi isə heyvanlar gəldilər. Allah bəzi cinslərdən yeddi, digərlərindən iki cüt gətirdi. Böyük və balaca quşlar, balaca və hündür çöl heyvanları gəmiyə gəldilər.



Bəlkə, Nuh heyvanları gəmiyə doldurduqca insanlar qışqıraraq onu təhqir edirdilər.  Onlar Allaha qarşı günah işlətməyə davam edirdilər.  Onlar gəmiyə daxil olmağı xahiş etmədilər.





Nəhayət, bütün
heyvanlar və
quşlar gəmiyə
daxil oldular.
Rəbb Nuha dedi:
"Sən bütün ailənlə
birgə gəmiyə gir". Nuh,
onun arvadı, oğulları və gəlinləri
birlikdə gəmiyə girdilər.
Sonra Allah qapıları bağladı!



Sonra yağış yağdı.
Qırx gün, qırx gecə yer
üzündə daşqın oldu.



Su şəhərlər və
kəndlər üzərinə
töküldü.  Yağış dayananda,
hətta dağlar da suyun altında qalmışdı.
Nəfəs alan bütün canlı
varlıqların hamısı öldü.



Su çox yuxarı qalxdıqca, gəmi suyun üzündə üzməyə başladı. Ola bilsin ki, gəminin içi qaranlıq, bəlkə də kələ-kötürlü və yaxud da vahiməli idi.  Lakin gəmi Nuhu daşqından qorudu.

Beş ay sürən daşqından sonra Allah yer üzərinə külək göndərdi. Yavaş-yavaş gəmi Ararat dağlarında dayandı. Su çəkilənə qədər Nuh daha qırx gün gəminin içində qaldı.



Nuh gəminin açıq pəncərəsindən qarğa və göyərçin buraxdı. Göyərçin qonmaq üçün rahat bir yer tapmadığına görə Nuhun yanına qayıtdı.



Bir həftə sonra Nuh yenidən göyərçini buraxdı.  Sonrakı həftə Nuh yer üzərinin quru olduğunu bildi, çünki göyərçin geri qayıtmadı.

Allah Nuha dedi ki, artıq gəmidən çıxmaq vaxtıdır.  Nuh və onun ailəsi birlikdə heyvanları gəmidən çıxartdılar.





Nuh yəqin ki, necə də minnətdar idi!  O, qurbangah tikdi, onu və onun ailəsini dəhşətli daşqından xilas edən Allaha ibadət etdi.



Allah Nuha gözəl əhd verdi. İnsan günahını mühakimə etmək üçün O, yer üzərinə bir daha daşqın göndərməyəcək.
Allah Öz əhdini xatırlatmaq üçün gözəl bir əlamət qoydu. Göy qurşağı Allahın əhdinin əlaməti idi.

Nuh və onun ailəsi
daşqından sonra
yeni başlanğıc tapdılar. Vaxt
keçdikcə onun nəsli yer üzərində
yenidən artdı. Yer üzərindəki
bütün insanlar Nuhdan və
onun övladlarından
yarandı.



# Nuh və Böyük Daşqın

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yaradılış 6-10

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**